




*Vətən bölünməzdir!*

# LƏNKƏRAN

İCTİMAİ-SİYASİ QƏZET

№-05-06 (8551 ) Şənbə, 15 mart 2025-ci il Qəzetin əsası 1931-ci ildə qoyulmuşdur Qiyməti 50 qəpik


# Azərbaycan Respublikası vətəndaşlarının 2025-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədilə **qərara alıram:**

1. 2007-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1995-2006-cı illərdə doğulmuş, yaşı 30-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2025-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.



2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2025-ci il aprelin 1-dən 30-dək ehtiyata buraxılsınlar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 14 fevral 2025-ci il**

# Xonçalı Novruz gəlir...

*Yarımbaşlıq çıxardın*

**Təbiətin oyanışından xəbər verən bahar, ülvi niyyətlər bayramı olan Novruz Azərbaycan torpağına qədəm qoyur. Xalqımız əsrlər boyu yaddaşlara yoldaş olan bu bayramı bir-birindən maraqlı ayin, etiqad və mərasimlərlə zənginləşdirib. Novruz (farsca "yeni gün" mənasındadır) Şəmsi təqvimi ilə yeni ilin başlanması bayramıdır, yazda gecə ilə gündüzün bərabər olduğu günə təsadüf edir. Novruz bayramı əsrlərin dərinliyindən gəlib bizim günlərə çıxmış ən şən və nikbin bayramlardan biridir.**

Novruz dünyəvi bayramdır. Novruz bayramı YUNECKO-nun Qeyri-Maddi Mədəni İrs siyahısına salanaraq dünya miqyasında qeyd edilir. Hər bir xalq bu bayramla bağlı özünəməxsus mövsümi nəğmələr, mərasimlər yaradıb. Novruz Azərbaycanla yanaşı, Qafqazda, İranda, Türkmənistanda, Tacikistanda, Özbəkistanda, Pakistanda, Qazaxıstanda, Qırğızıstanda xüsusi təntənə ilə qeyd edilir.

Novruz bayramı, birlik, qardaşlıq bayramı, xalq şənliyidir. Novruz sərhədləri aşdıqca, millətlərin və xalqların bəşəri bayramına çevrildikcə, hərə bu bayramı öz məişəti ilə bağlamağa çalışıb və Şərq dünyasında Novruzla bağlı müxtəlif mülahizələr, adət-ənənələr, mərasimlər, əfsanə və rəvayətlər yaranıb. Şərq xalqları Novruzu yeni ilin başlanğıcı hesab edərək onu bolluq, bərəkət və firavanlığın əzəli kimi rəmzləşdiriblər. Bahar bayramının kütləvi el şənlikləri və mərasimlərlə dövlət səviyyəsində keçirilməsi və yurdumuzun hər bir guşəsində sonsuz sevinclə qarşılanması milli müstəqilliyimizin bizə bəxş etdiyi nailiyyətlərdəndir. Ölkəmizin hüdudlarından uzaqlarda yaşayan və qəlbləri Azərbaycanla birgə döyünən soydaşlarımız da bu əziz günü bizimlə bərabər qeyd edirlər.

Minillik qan yaddaşımızdan süzülüb gələn Novruz bayramı müxtəlif təqiblərə, qadağalara baxmayaraq, xalqımız tərəfindən daim qorunub, uca tutulub, böyük sevgi ilə qeyd edilib.

Həmişə olduğu kimi, bu Novruzda da ürəklər arzu, istəklə doludur. Adət-ənənələrindən tutmuş rəmzlərinədək Novruzun hər bir əlaməti arzu, dilək carçısıdır.

Azərbaycan xalqı bu il Növruzu tamam fərqli ab-hava ilə qarşılayır. 30 ildən sonra işğaldan azad Novruz gəlir...

Təbiətin oyanışından xəbər verən bahar, ülvi niyyətlər bayramı olan Novruz Azərbaycan torpağına qədəm qoyur. Xalqımız əsrlər boyu yaddaşlara yoldaş olan bu bayramı bir-birindən maraqlı ayin, etiqad və mərasimlərlə zənginləşdirib. Novruz bayramı əsrlərin dərinliyindən gəlib bizim günlərə çıxmış ən şən və nikbin bayramlardan biridir. Novruz dünyəvi bayramdır. Novruz bayramı YUNECKO-nun Qeyri-Maddi Mədəni İrs siyahısına salanaraq dünya miqyasında qeyd edilir. Hər bir xalq bu bayramla bağlı özünəməxsus mövsümi nəğmələr, mərasimlər yaradıb.

Novruz Azərbaycanla yanaşı, Qafqazda, İranda, Türkmənistanda, Tacikistanda, Özbəkistanda, Pakistanda, Qazaxıstanda, Qırğızıstanda xüsusi təntənə ilə qeyd edilir. Novruz bayramı, birlik, qardaşlıq bayramı, xalq şənliyidir. Novruz sərhədləri aşdıqca, millətlərin və xalqların bəşəri bayramına çevrildikcə, hərə bu bayramı öz məişəti ilə bağlamağa çalışıb və Şərq dünyasında Novruzla bağlı müxtəlif mülahizələr, adət-ənənələr, mərasimlər, əfsanə və rəvayətlər yaranıb. Şərq xalqları Novruzu yeni ilin başlanğıcı hesab edərək onu bolluq, bərəkət və firavanlığın əzəli kimi rəmzləşdiriblər.

Bahar bayramının kütləvi el şənlikləri və mərasimlərlə dövlət



səviyyəsində keçirilməsi və yurdumuzun hər bir guşəsində sonsuz sevinclə qarşılanması milli müstəqilliyimizin bizə bəxş etdiyi nailiyyətlərdəndir. Ölkəmizin hüdudlarından uzaqlarda yaşayan və qəlbləri Azərbaycanla birgə döyünən soydaşlarımız da bu əziz günü bizimlə bərabər qeyd edirlər.

Minillik qan yaddaşımızdan süzülüb gələn Novruz bayramı müxtəlif təqiblərə, qadağalara baxmayaraq, xalqımız tərəfindən daim qorunub, uca tutulub, böyük sevgi ilə qeyd edilib.

Həmişə olduğu kimi, bu Novruzda da ürəklər arzu, istəklə doludur. Adət-ənənələrindən tutmuş rəmzlərinədək Novruzun hər bir əlaməti arzu, dilək carçısıdır.

Azərbaycan xalqı bu il Növruzu tamam fərqli ab-hava ilə qarşılayır. 30 ildən sonra işğaldan azad edilən torpaqlarımızda da Novruz bayramının qeyd edilməsinin sevincini yaşayırıq. O torpaqlarda tonqal qalanır, səməni cücərdilir, yurd yerlərimizin azadlığı uğrunda canından keçən şəhidlərimizin ruhuna dualar oxunur.

Dünyamza yeni həyat gətirən, qəlbləri sevindirən, ətrafı gözəlləşdirən, təbiəti oyadan, bayramların ən seviləni olan Novruz bayramınız mübarək, əziz dostlar!

**"Lənkəran"**

# Lənkəranda Xocalı faciəsinin 33-cü ildönümü qeyd olunub

*Yarımbaşlıq çıxardın*

**Fevralın 26-da Lənkəranda Xocalı soyqırımı qurbanlarının xatirəsi anılıb. Qeyd edək ki, fevralın 25-dən 26-na keçən gecə davamlı artilleriya atəşindən sonra Ermənistan silahlı qüvvələri və yarımhərbi birləşmələri keçmiş sovet ordusunun 366-cı motoatıcı alayının köməyi ilə şəhərə hücum edərək, mülki əhaliyə misli görünməmiş vəhşiliklə divan tutublar.**





Qətliam nəticəsində 613 azərbaycanlı, o cümlədən 106 qadın, 63 uşaq, 70 ahıl xüsusi amansızlıqla qətlə yetirilib, 1275 nəfər əsir götürülüb, onlardan 150-nin taleyi isə indiyədək naməlum qalıb. 8 ailə tamamilə məhv edilib, 25 uşaq valideynlərindən hər ikisini, 130 uşaq isə valideynlərindən birini itirib. 487 şəxs, o cümlədən 76 uşaq meruz qaldıqları ağır fiziki və psixoloji işgəncələrdən ömürlük əlilə çevrilib.

Soyqırımı qurbanlarının xatirəsinə həsr olunan anım mərasimi Lənkəran şəhərində, azərbaycanlıların soyqırımı qurbanlarının xatirə parkındakı "Ana heykəli" qarşısında keçirilib.

Xocalı faciəsinin 33-cü ildönümünə həsr olunan anım mərasimində Lənkəran Şəhər İcra Hakimiyyətinin (ŞİH) başçısı Taleh Qaraşov, şəhər İcra hakimiyyətinin kollektivi, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, gənclər və ictimaiyyətin nümayəndələri iştirak ediblər, abidə önünə tər güllər düzüblər, soyqırımı qurbanlarının xatirəsini ehtiramla yad ediblər.

Daha sonra N.B.Vəzirov adına Lənkəran Dövlət Dram Teatrı aktyorlarının ifasında "Xocalı fəryadı" adlı kompozisiya nümayiş etdirilib.

*Yarımbaşlıq çıxardın*

Qeyd edək ki, rayon ərazisində dövlət bayraqları yarıyadək endirilib, gün ərzində soyqırımı qurbanlarının xatirəsinə ucaldılan abidə əhali tərəfindən ziyarət olunub, rayonun idarə, müəssisə və təşkilatlarında, Heydər Əliyev Mərkəzində anım tədbirləri, Lənkəran Dövlət Universitetində, orta ixtisas və ümumtəhsil məktəblərində bu qanlı faciəyə həsr olunmuş dərslər keçirilib, mədəniyyət müəssisələrində foto, rəsm və kitab sərgiləri təşkil edilib.

**"Lənkəran"**






## UNUTMARAM XOCALIM

**Neçə ildir axıb gedən göz yaşım
Sel olmasa, bəs mən necə bənd aşım?
Qan ağlayan çəmənləri, dağ-daşı,
Gülzar edib, yağılardan bac alım,
Unutmadım, unutmaram, Xocalım.**

**Gündüzlərim gecə kimi qaranlıq,
Unutmadım bu dərdləri bir anlıq.
Bax, qisassız ötüb keçdi cavanlıq,
Rəva bilmə bu dərdlərlə qocalım,
Unutmadım, unutmaram, Xocalım.**

**Köpəyini dünya tutdu tay mənə,
Arxalıydı, zülm elədi hay mənə.
İmdad etməz Günəş mənə, Ay mənə,
Qoy türk olum, oğuz kimi ucalım,
Unutmadım, unutmaram, Xocalım.**

**Düz əqidəm, düz amalım, düz sözüm,
Son sözümü deyəcəyəm mən özüm.
Zülmətlərdə parlayacaq gündüzüm,
Qoy, Vətəndən, Bayrağımdan güc alım.
Unutmadım, unutmaram, Xocalım.**

**Köməyim ol, göz yaşımı sil yenə,
Söyləyirəm son arzumu mən Sənə,
Uca Tanrım, gücündən güc ver mənə,
Qaniçəndən, yaramazdan öc alım.
Unutmadım, unutmaram, Xocalım!**

**Abdulla CƏFƏR**




# Lənkəranda “Konstitusiya və Suverenlik İli” çərçivəsində 100-dən çox şam ağacı əkilib

**“Konstitusiya və Suverenlik İli” ilə bağlı təsdiq olunmuş Tədbirlər Planına uyğun olaraq 11 martda Ələt-Astara avtomobil yolunun Şiləvar kəndindən keçən hissəsində ağacəkmə aksiyası keçirilib.**

Lənkəran Şəhər İcra Hakimiyyətinin (ŞİH) başçısı Taleh Qaraşovun, idarə, müəssisə, şəhid valideynlərinin və ictimaiyyətin nümayəndələrinin iştirakı ilə baş tutan aksiya iştirakçıları öncə Şiləvar qəbristanlığında dəfn olunan şəhid məzarlarını ziyarət ediblər, məzarları önünə gül dəstələri düzüblər, ruhlarına dualar oxuyublar.

Sözügedən aksiyada 100 şam ağacı əkilib, yeni əkilən ağaclar suvarılıb və dayaqlarla bərkidilib. Qeyd edək ki, ağacəkmə aksiyasının ilboyu davam etdirilməsi nəzərdə tutulub.

**“Lənkəran”**



# “Konstitusiya və Suverenlik İli” - Azərbaycan xalqının həmrəyliyinin və gücünün ifadəsidir

**Azərbaycan Respublikasının ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunduğunu, 2025-ci ildə Konstitusiyanın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbənin 5-ci ildönümünü nəzərə alaraq Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin 28 dekabr 2024-cü il tarixli Sərəncamı ilə 2025-ci il ölkəmizdə “Konstitusiya və Suverenlik İli” elan edilmişdir.**

Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etmişdir. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynamışdır. Konstitusiyanın preambulasında Azərbaycanın dövlət müstəqilliyinin suverenliyinin və ərazi bütövlüyünün qorunması başlıca niyyətlərdən biri kimi bəyan edilmişdir. Lakin bədnam qonşularımız olan Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin 30 ilə yaxın işğal altında qalması Azərbaycan Respublikasının suveren hüquqlarının həmin ərazilərdə tətbiqinə imkan verməmişdir.

Məhz Ermənistanın işğalçılıq siyasətinə son qoyulmasından sonra, ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa edilməsi Azərbaycan xalqının milli ideyasının əsas məqsədlərindən birinə çevrilmişdir. 2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi qələbə və 2023-cü il sentyabrın 19-20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı bütün ərazilərdə bərqərar olmuşdur. Elə bu məqsədlə də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edilmişdir.




Azərbaycan xalqı bu gün artıq əsrlər boyu arzusu ilə yaşadığı, mübarizə apardığı müstəqil, suveren, qalib dövlətə sahibdir. Qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına milli sərvətimiz sayılan ərazi bütövlüyümüz, suverenliyimiz tam bərpa olunmuş, bütün ölkə ərazisində konstitusiya quruluşumuz bərqərar edilmişdir. Böyük qürur və fəxarət hissi ilə qeyd edək ki, bu il müəllifi Ümummilli Liderimiz Heydər Əliyev olan Milli Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Prezident, Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə Vətən müharibəsində qazanılmış tarixi qələbəmizin 5-ci ildönümünü böyük təntənə ilə qeyd edəcəyik. Bunun üçün 28 dekabr 2024-cü il tarixdə Azərbaycan Respublikasında 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi haqqında imzalanmış sərəncam tam əminliklə deyə bilərik ki, mühüm tarixi əhəmiyyətə malik olan bir sənəd olmaqla tarixi Zəfərimizin regionda və dünya siyasətində yol açdığı yeniliklərin, eyni zamanda, 1995-ci ildə Milli Konstitusiyamızın qəbul edilməsindən ötən dövr ərzində Azərbaycanın hüquqi dövlət kimi möhkəmlənən mövqeyinin təqdimatında mühüm rol oynayacaqdır.

Bu gün hər birimiz müasir müstəqil Azərbaycanın uğurlarından, regionda və dünyada söz sahibliyindən, sözünün imzası qədər əhəmiyyətli olmasından qürur hissi ilə söhbət açırıq. Ölkəmizin hazırkı vəziyyətini müstəqilliyimizin bərpasının ilk illəri ilə müqayisə etdikdə qazandığımız uğurlara görə kimə borclu olduğumuzu bir daha aydın şəkildə dərk edir, bunu gənc nəslə çatdırmağı qarşımızda məqsəd qoymağı özümüzə borc bilirik.

İstəsək də, istəməsək də çox da uzaq olmayan keşməkeşli tariximizin müəyyən nüanslarını xatırlayaq. 1990-cı illərin əvvəllərində müstəqilliyini bərpa etmiş Azərbaycanın yeni mərhələdə qarşısında duran tarixi vəzifələrin öhdəsindən o dövrdəki AXC-Musavat hakimiyyət gələ bilmədi, ölkəmiz böyük çətinliklərlə, faciələrlə üz-üzə qaldı, cəmiyyət həyatının bütün sahələrində kəskin böhran, anarxiya baş alıb getdi. Torpaqlarımız “Böyük Ermənistan” xülyası ilə yaşayan bədnam qonşularımız tərəfindən işğal edildi, xalqımızın milli mənliyinə sarsıdıcı zərbələr endirilirdi. Müstəqilliyin ilk illərində həlli çətin görünən problemlərlə üzləşmiş Azərbaycan Şərqdə ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin aqibətini yaşamaq iqtidarına gəlib çıxdı. Belə bir mürəkkəb dövrdə xalqın təkidli tələbi və çağırışı ilə ikinci dəfə hakimiyyətə gələn Heydər Əliyev müstəqilliyimizin qorunub saxlanması və inkişafı üçün taleyüklü problemləri müdrikcəsinə həll etdi, ölkəmiz öz inkişaf yolunu tutdu. Beləliklə də Azərbaycan xalqı 1991-ci il oktyabrın 18-də əldə etdiyi dövlət müstəqilliyini məhz Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında möhkəmləndirdi. 1995-ci il noyabrın 12-də isə Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul edildi. Qəbul olunmuş Konstitusiya ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynadı.

İnsan hüquq və azadlıqlarının qorunması, yeni müdafiə mexanizmlərinin müəyyənləşdirilməsi dövlət siyasətinin əsasını təşkil edir. Milli Konstitusiyamızda əksini tapan müddəaların böyük əksəriyyəti də insan hüquqlarının qorunmasına həsr edilmişdir. Konstitusiyamızın qəbulundan ötən dövr ərzində bu ali sənədə 3 dəfə: 2002, 2009 və 2016-cı illərdə əlavə və dəyişikliklərin edilməsi, Prezident İlham Əliyevin Sərəncamı ilə 18 iyun tarixinin ölkəmizdə” İnsan Hüquqları Günü” kimi təsis olunması insan hüquqlarının qorunmasının prioritetliyini təsdiqləyir. 2025-ci ilin “Konstitusiya və Suverenlik ili” elan edilməsi də ölkəmizdə bu sahədə atılan növbəti addımların davamıdır.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz tarixi Zəfərə imza atmış, ərazi bütövlüyümüz və suverenliyimiz bərpa olunmuş, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğaldan azad olunan bütün ərazilərdə bərqərar tapmış, Dövlət Bayrağımız əzəli torpaqlarımızda əzəmətlə dalğalanmaqdadır. Bu gün Qarabağ və Şərqi Zəngəzur dirçəldilir, keçmiş məcburi köçkünlərin doğma ata-baba yurdlarında daimi məskunlaşması təmin olunur. Ölkə başçısı İlham Əliyevin 19 sentyabr 2024-cü il tarixli Sərəncami ilə sentyabrın 20-si ölkəmizdə “Dövlət Suverenliyi Günü “elan edilmişdir. Bütün bu qalibiyyət ilə Azərbaycan dünyada yeni reallıqların müəllifi kimi tanınır. Yeni reallıqlar isə Azərbaycanımızı yeni uğurlara aparır.

**Əzizulla ŞÜKÜROV,**
**Lənkəran Rayon Qeydiyyat Şöbəsinin rəisi, ədliyyə müşaviri**

# “Lənkəranda bitkiçilik məhsullarının ixracı və istehsalı ilə məşğul olan sahibkarlarla görüş keçirilib



**Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) əməkdaşları tərəfindən Lənkəran rayonunda kartof və çiyələk ixracına hazırlıq, ixracın təşkili və qarşıda duran məsələlərin həlli ilə bağlı görüş keçirilib.**

Görüşdə ixracın çevik təşkil edilməsi məqsədi ilə tənzimləmə işlərinin koordinasiyası, inzibatçılığın təkmilləşdirilməsi və fermerlərin maarifləndirilməsi istiqamətində Agentlik tərəfindən mütəmadi olaraq görüşlərin keçirildiyi və fermerlərə dəstək göstərildiyi bildirilib. Bu sahədə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə ixrac əməliyyatları ilə bağlı ətraflı məlumat verilib. Həmçinin təsərrüfat obyektlərinin AQTA tərəfindən qeydiyyata alınmasının önəmi vurğulanıb və qanunvericiliyin tələbləri bir daha iştirakçıların diqqətinə çatdırılıb. Əlavə olaraq, idxalatçı ölkələrin idxal tələbləri, karantin tətbiq edilən zərərverici orqanizmlər haqqında ətraflı məlumatlar verilib. Görüş zamanı istehsalçıların məmnunluğunun təmin edilməsi məqsədi ilə təklifləri dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, Agentlik tərəfindən bu cür görüşlərin respublikanın qida sahəsində ixracpotensiallı bitkiçilik məhsullarının istehsalı ilə məşğul olan digər regionlarında da keçirilməsi nəzərdə tutulur.

**“Lənkəran”**

# İCRA BAŞÇISININ SƏYYAR GÖRÜŞ - QƏBULLARI

## Sütəmurdovda

**Lənkəran Şəhər İcra Hakimiyyətinin (ŞİH) başçısı Taleh Qaraşov təqvim planına uyğun olaraq növbəti səyyar görüş-qəbulunu Sütəmurdov kənd inzibati ərazi dairəsinin sakinləri ilə keçirib. Səyyar qəbulda icra hakimiyyəti aparatının məsul şəxsləri, rayonun hüquq-mühafizə orqanlarının, əlaqədar təşkilatların və xidmət sahələrinin rəhbər işçiləri də iştirak ediblər.**

Lənkəran ŞİH-nin başçısı səyyar görüş-qəbulun Od çərşənbəsinə təsadüf etdiyini, Sütəmurdov sakinlərinin timsalında bütün lənkəranlıların Günəşin oyanışını, torpağın isinməsini və təbiətin canlanmasını simvolizə edən Od çərşənbəsi münasibətilə təbrik edib.

Taleh Qaraşov çıxışında ötən səyyar qəbulda qaldırılan məsələlərin icra vəziyyəti barədə yerli sakinlərə məlumat verilib. Onun sözlərinə görə, yerlərdə vətəndaşlarla birbaşa dialoqun qurulmasında məqsəd insanların ümumi və şəxsi problemlərinin dinlənilməsi, onların həlli istiqamətində operativ və nəticəyə yönəlik addımların atılmasını təmin etməkdir.

Taleh Qaraşov bildirib ki, insanlarla birbaşa dialoqun qurulması, qarşılıqlı etimadın gücləndirilməsi və onları narahat edən məsələlərin həllinə köməklik göstərilməsi bu gün prioritet məsələlərdəndir. Dövlət başçısı İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın vətəndaş müraciətlərinə həssaslıqla yanaşdıqlarını vurğulayan ŞİH-nin başçısı səyyar qəbulda qaldırılan məsələlərin şəxsi nəzarətində olduğunu qeyd edib.



Taleh Qaraşov yerli sakinlərin şəxsi və ümumi problemlərini dinləyib, yerli icra hakimiyyətinin səlahiyyətlərinə aid olan və ədalətli qaldırılan məsələlərin həlli ilə bağlı yerindəcə göstərişlərini verib, digər məsələlər barədə aidiyyəti yuxarı qurumlara rəsmi müraciətlərin ünvanlanması və nəticəsi barədə vətəndaşlara məlumat verilməsini səlahiyyətli şəxslərə tapşırıb.

Yerli sakinlər səmimi və açıq qəbula görə məmnunluqlarını ifadə ediblər. Sütəmurdov kəndinin sakinləri dövlət başçısı cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya sosial-iqtisadi vəziyyətlərinin gündən-gündən yaxşılaşdığına, müavinətlərin və maaşların hər il artırıldığına, müraciətlərinə obyektiv və operativ baxıldığına, sosial infrastruktur layihələrinin uğurla həyata keçirildiyinə görə dərin və səmimi minnətdarlıqlarını bildiriblər.

## Şıxakəranda



**Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov Şıxakəran kənd inzibati ərazi dairəsinin sakinləri ilə növbəti səyyar görüş-qəbulunu keçirib. Səyyar qəbulda icra başçısı ilə birgə icra hakimiyyəti aparatının məsul şəxsləri, hüquq mühafizə orqanlarının rəhbərləri, yerli idarə və müəssisələrin nümayəndələri də iştirak ediblər.**

Taleh Qaraşov səyyar görüşün əlamətdar günə - su çərşənbəsinə təsadüf etdiyini vurğulayıb və bu münasibətlə Şıxakəran kəndinin sakinlərinin timsalında bütün lənkəranlıları təbrik edib. İcra başçısı cənab Prezidentin göstərişinə uyğun olaraq vətəndaşla dövlət arasındakı qarşılıqlı etimadın və inamın davamlılığını təmin etməkdən ötrü yerlərdə səyyar görüşlərin keçirildiyini qeyd edib. Ötən səyyar qəbulda qaldırılan məsələlərin icra vəziyyəti barədə yerli insanları məlumatlandıran Taleh Qaraşov heç bir müraciətin diqqətdən kənar qalmadığını bildirib. Onun sözlərinə görə, insanların gündəlik qayğı və problemlərinin öyrənilməsi, onları narahat edən məsələlərin yerində araşdırılması, habelə obyektiv qaldırılan məsələlərin ədalətli həllinə nail olunması məqsədini daşıyan səyyar qəbullar eyni zamanda, vətəndaşla məmur arasındakı qarışılıqlı münasibətlərin inkişafına, etimadın daha da güclənməsinə, dialoq mühitinin uğurla irəliləyişinə xidmət edir.

Görüş-qəbulda vətəndaşların maneəsiz, könüllü şəkildə fikir və istəklərinin rayon rəhbərliyinə çatdırılmasına tam şərait yaradılıb. Şıxakəran kəndinin sakinləri Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın sosial sahəyə göstərdikləri diqqət nəticəsində ölkəmizdə sosial inkişaf istiqamətində mühüm nailiyyətlərin əldə olunduğunu qeyd ediblər və buna görə onlara minnətdarlıqlarını bildiriblər.

## İstisu qəsəbəsində



**ŞİH-nin başçısı Taleh Qaraşov İstisu qəsəbəsində növbəti səyyar qəbulun 8 Mart - Beynəlxalq Qadınlar Günü ərəfəsində keçirildiyini bildirərək, qəsəbə qadınlarının simasında bütün lənkəranlı xanımları təbrik edib.**

Taleh Qaraşov bildirib ki, vətəndaşlarla birbaşa dialoqun qurulması, qarşılıqlı etimadın gücləndirilməsi və onları narahat edən məsələlərin həllinə köməklik göstərilməsi məqsədinə xidmət edən səyyar görüşlər dövlət başçısının göstərişinə uyğun olaraq keçirilir. İcra başçısı qeyd edib ki, səyyar qəbul-görüşlərdə qaldırılan bütün məsələlər şəxsən onun nəzarətindədir.

Yerli insanların suallarını və müraciətlərini səbr, təmkin və məmnuniyyətlə dinləyib cavablandıran Taleh Qaraşov qeyd edib ki, Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq vətəndaşların bütün müraciətlərinə həssaslıqla yanaşılır, dərindən təhlil edilir, qaldırılan məsələlər ümumiləşdirilir, həlli üçün uyğun mexanizmlər və təklif irəli sürülür.

İstisu sakinləri səmimi qəbuldan və açıq dialoqdan məmnun qalıblar. Problem və qayğılarının həllinə nail olacaqlarına inamlarını ifadə edən yerli sakinlər dövlət başçısı İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya müraciətlərinə obyektiv və operativ baxıldığına, sosial infrastruktur layihələrinin uğurla həyata keçirildiyinə görə dərin və səmimi minnətdarlıqlarını vurğulayıblar.

## Şağlaserdə



**Lənkəran Şəhər İcra Hakimiyyətinin (ŞİH) başçısı Taleh Qaraşov növbəti səyyar görüş-qəbulunu Şağlaser kənd inzibati ərazi dairəsinin sakinləri ilə keçirib. Görüşdə icra hakimiyyəti aparatının məsul şəxsləri, hüquq mühafizə orqanlarının rəhbərləri, yerli idarə və müəssisələrin nümayəndələri iştirak ediblər.**

Lənkəran ŞİH-nin başçısı Taleh Qaraşov bildirib ki, yerlərdə insanlarla birbaşa, açıq dialoqun qurulması, vətəndaşların qayğı və problemlərinin dinlənilməsi məqsədinə xidmət edən səyyar görüşlər dövlət başçısının xüsusi tapşırığı əsasında keçirilir. Onun sözlərinə görə, dövlətin siyasi xəttinin mərkəzində insan amilinin dayanması vətəndaş-məmur münasibətlərində yeni düşüncə tərzinin, qarşılıqlı açıq dialoq mühitinin formalaşması, dövlət qulluğunun xalqa xidmət mənasını ifadə etməsi zərurətini yaradır.

İcra başçısı daha sonra ötən səyyar qəbulda qaldırılan məsələlərin həlli vəziyyətilə bağlı sakinlərə məlumat verib. Vətəndaş müraciətlərinə baxılmasında şəffaflığın və nəzarətin gücləndirilməsinin xüsusi önəm kəsb etdiyini vurğulayan Taleh Qaraşov qeyd edib ki, insanları narahat edən heç bir məsələyə biganə qalınmayacaq və qaldırılan məsələlərin həlli ilə bağlı vətəndaşlara qanunamüvafiq müddətdə cavablar veriləcək.

Qarşılıqlı dialoq formatında keçən görüşdə yerli insanlar fikirlərini və onları narahat edən məsələləri sərbəst, könüllü və birbaşa ifadə ediblər. Şağlaser, Cil və Xarxatan kəndlərinin sakinləri vətəndaşla dövlət məmuru arasındakı birbaşa dialoq mühitinin inkişafına, onların qayğı və problemlərinin həllinə yönəlik çevik addımların atılmasına, qaldırılan məsələlərə operativ və obyektiv yanaşmanın ortaya qoyulmasına görə dövlət başçısı İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya səmimi təşəkkürlərini bildiriblər.

## Osakücə kəndində



**Lənkəran Şəhər İcra Hakimiyyətinin (ŞİH) başçısı Taleh Qaraşov növbəti səyyar qəbul-görüşünü Osakücə kənd inzibati ərazi dairəsinin sakinləri ilə keçirib. Səyyar qəbulda icra hakimiyyəti aparatının məsul şəxsləri, hüquq mühafizə orqanlarının rəhbərləri, yerli idarə və müəssisələrin nümayəndələri iştirak ediblər.Taleh Qaraşov səyyar qəbulun Novruz bayramının üçüncü çərşənbəsi - Yel çərşənbəsinə təsadüf etdiyini bildirib, yerli sakinlərin simasında bütün lənkəranlıların Yel çərşənbəsini təbrik edib.**

Vətəndaşların maneəsiz, könüllü fikir və istəklərinin rayon rəhbərliyinə çatdırılmasına tam şərait yaradıldığı səyyar qəbulda icra başçısı ötən dövr ərzində ərazi üzrə qaldırılan məsələlərin icra vəziyyəti ilə bağlı sakinlərə məlumat verib.

Vətəndaşların qayğı və problemlərinin öyrənilməsi, qaldırılan məsələlərin həllinə yönəlik addımların atılması istiqamətində yerlərdə keçirilən səyyar görüş-qəbulların xüsusi önəmi barədə danışan Taleh Qaraşov qaldırılan bütün məsələlərin şəxsi nəzarətində olduğunu qeyd edib.

Osakücə, Pambəyi, Tatoba, Sinovli, Moloja və Haftaruon kəndlərinin sakinləri onları narahat edən ümumi və şəxsi problemlərini birbaşa icra başçısına söyləyiblər.

Yerli sakinlər cənab Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın vətəndaş məmnunluğunun təmin edilməsi, vətəndaş-məmur münasibətlərindəki yeni mühitin daha da inkişaf etdirilməsi istiqamətindəki səylərinə görə onlara səmimi minnətdarlıqlarını ifadə ediblər.

## Nərimanabadda

**Lənkəran Şəhər İcra Hakimiyyətinin (ŞİH) başçısı Taleh Qaraşov Nərimanabad qəsəbəsinin sakinləri ilə növbəti səyyar görüş-qəbulunu keçirib.**

İcra başçısı bildirib ki, vətəndaş məmnunluğunun təmin edilməsi, qaldırılan məsələlərin həllinə obyektiv yanaşılması və problemlərin çözümüylə bağlı əlverişli mexanizmlərin təklif edilməsi bütün dövlət məmurları qarşısında qoyulan başlıca tələblərdəndir və keçirilən səyyar görüşlər məhz sözügedən məqsədə nail olunmasına xidmət edir. Onun sözlərinə görə, vətəndaşların qaldırdıqları bütün məsələlər diqqətlə və həssaslıqla araşdırılır, onların həlli üçün bütün imkanlar səfərbər edilir.



Səyyar qəbulda qəsəbə sakinlərini narahat edən və yerli icra hakimiyyətinin səlahiyyətlərinə aid olan məsələlər yerində həllini tapıb, digər məsələlərin həlli üçün aidiyyəti yuxarı qurumlara rəsmi müraciətlər ünvanlanıb.

Qəsəbə sakinləri fikir və istəklərini sərbəst, maneəsiz və könüllü rayon rəhbərinə çatdırıblar, yerli insanlar sosial sahəyə xüsusi qayğısı nəticəsindəölkəmizdə sosial inkişaf istiqamətində mühüm nailiyyətlərin əldə olunduğunu vurğulayıb və buna görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

**“Lənkəran”**

# Daxili İşlər Naziri Lənkəranda növbəti vətəndaş qəbulu və sıra baxışı keçirib



**Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov martın 7-də Lənkəran Şəhər Rayon Polis Şöbəsində vətəndaşların müraciətini dinləyib.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, nazir əvvəlcə Lənkəran şəhərindəki Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra Lənkəran Şəhər Rayon Polis Şöbəsində Lənkəran, Masallı, Astara, Yardımlı, Lerik şəhər və rayonlarından qəbula gələn 352 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.







Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb.

Daxili işlər naziri general-polkovnik V.Eyvazov qeyd olunan rayonların polis rəislərinə ictimai asayişin qorunmasında, cinayətkarlığa qarşı mübarizədə daha səmərəli tədbirlərin tətbiqi, vətəndaşların müraciətlərinə operativ və obyektiv baxılmasına dair tapşırıqlarını verib.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

Vətən müharibəsinin 24 iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 237 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.



# Fövqəladə hallar naziri Lənkəranda vətəndaşları qəbul edib









**Prezident İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin respublikanın bölgələrində vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, fövqəladə hallar naziri Kəmaləddin Heydərov Lənkəran şəhərində nazirliyin Cənub Regional Mərkəzinin binasında Lənkəran və Astara rayonları sakinlərinin müraciətlərini dinləyib.**

Nazir əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Lənkəran şəhərindəki abidəsini ziyarət edərək abidənin önünə gül dəstəsi düzüb, əziz xatirəsini dərin ehtiramla yad edib.

Lənkəran və Astara rayonları sakinlərinin nazirə edilən müraciətlərinin əksəriyyəti yerindəcə həllini tapıb, bir sıra məsələlərlə bağlı qanunvericiliyə uyğun dərhal zəruri tədbirlərin görülməsi barədə FHN-in aidiyyəti strukturlarının rəhbərlərinə tapşırıqlar verilib.

Fövqəladə hallar naziri ilə yanaşı, nazir müavinləri, nazirliyin müvafiq struktur bölmə və qurumlarının rəhbərləri də vətəndaşların müraciətini dinləyiblər.

Vətəndaşlar onların müraciətlərinə yerində və operativ yanaşılması üçün yaradılan şəraitə görə ölkə Prezidentinə minnətdarlıq ediblər.

**“Lənkəran”**

# Lənkəranda “Azərişıq” ASC-nin 10-cu ildönümü qeyd olunub

*Yarımbaşlıq çıxardın*

**Lənkəran şəhər Mədəniyyət Mərkəzində 10 fevral - “Azərişıq” ASC-nin yaranmasının 10-cu ildönümü ilə əlaqədar yubiley- konsert proqramı keçirilib.**

Lənkəran Şəhər İcra Hakimiyyətinin (ŞİH) və “Azərişıq” ASC-nin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə icra başçısı Taleh Qaraşov, “Azərişıq” ASC sədrinin müşaviri Xalid Təhməzov, “Azərişıq” ASC-nin “Cənub” Regional Enerji Təchizatı və Satışı İdarəsinin rəisi Elgün Məmmədov və rayon ictimaiyyəti iştirak ediblər.

Tədbir iştirakçıları Lənkəran şəhər Mədəniyyət Mərkəzinin foyesində qurumun fəaliyyətindən bəhs edən “Azərişıq - işıqlı 10 il” başlıqlı fotosərgi ilə tanış olublar.

Dövlət Himninin səsləndirilməsindən sonra torpaqlarımızın azadlığı uğrunda canlarını qurban verən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, daha sonra “Azərişıq” ASC-nin fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Lənkəran Şəhər İcra Hakimiyyətinin (ŞİH) başçısı Taleh Qaraşov çıxışında bildirib ki, enerji siyasətimizin əsası Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Onun sözlərinə görə, məhz Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrlərdə elektrik enerjisi sisteminin inkişafı daim prioritet məsələlər sırasındaolub, bu sistemin sürətli inkişafını təmin etmək məqsədilə bir sıra irimiqyaslı layihələr reallaşdırılıb. Ümummilli Lider Heydər Əliyev siyasi kursunun layiqli davamçısı cənab Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasi fəaliyyəti nəticəsində, ölkəmiz nəinki elektrik enerjisinə olan tələbatını yerli imkanlar hesabına ödənilməsini təmin edib eyni zamanda elektrik enerjisi ixrac edən respublikaya çevrilib. İcra başçısı bildirib ki, cənab Prezident İlham Əliyev tərəfindən sözügedən strateji xətt uğurla davam etdirilərək, elektroenergetika sisteminin müasir çağırışlar və beynəlxalq tələblər səviyyəsində qurulması üçün bu gün də davamlı və ardıcıl islahatlar həyata keçirilir.



“Azərişıq” ASC sədrinin müşaviri Xalid Təhməzov bildirib ki, təmsil etdiyi qurum tərəfindən öz üzərinə düşən missiyanın layiqincə yerinə yetirilməsi məqsədilə ölkənin bütün ərazilərində genişmiqyaslı yenidənqurma və təmir işləri həyata keçirilir, şəbəkə infrastrukturunun müasirləşdirilməsi, qabaqcıl və innovativ texnologiyaların tətbiq edilməsi istiqamətində təxirəsalınmaz tədbirlər görülür. ASC sədrinin müşaviri qeyd edib ki, vətəndaş məmnunluğunun təmin edilməsi məqsədilə Səhmdar Cəmiyyət tərəfindən göstərilən xidmətlərin keyfiyyəti mütəmadi olaraq yüksəldilir, proseslərin məsafədən koordinasiya olunması, dayanıqlı və operativ əlaqənin təşkili üçün müasir texnologiyalar tətbiq olunmaqla “Çağrı mərkəzi” yenidən qurulmuş və abonent sorğuları qısa müddətdə cavablandırılır.

“Azərişıq” ASC-nin “Cənub” Regional Enerji Təchizatı və Satışı İdarəsinin rəisi Elgün Məmmədov isə çıxışında qeyd edib ki, istismar müddəti bitmiş avadanlıqlar texniki baxımdan daha müasir və güclü avadanlıqlarla yenilənir, yeni yarımstansiyalar tikilir, uzun müddət istismarda olan naqil və açıq tipli hava xətləri yeni müasir tipli izolyasiyalı naqillər ilə əvəz olunur. İdarə rəisinin sözlərinə görə, hazırda region üzrə 25 kəndin elektrik təsərrüfatında yenidənqurma işləri davam etdirilir. 44 kəndin elektrik təsərrüfatında yenidən qurma işlərinin aparılması nəzərdə tutulub.

Daha sonra şəhid Şəhriyar Həbibinin anası Təranə Həbibova çıxış edib. Şəhid anası dövlətin hər zaman qayğısını və diqqətini hiss etdiklərini bildirib, buna görə dövlət başçısı cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlığını ifadə edib.

Tədbirin rəsmi hissəsindən sonra konsert proqramı keçirilib.

**“Lənkəran”**

Repessiya qurbanları

# "XALQ DÜŞMƏNİ"NİN ARVADI

## və ya Lənkəranda ilk qızlar məktəbinin müdiri

**Lənkəranda ilk qadın Xeyriyyə cəmiyyətinin təşkilatçısı, "Ünas" (qızlar) məktəbinin müdiri, 1919-1920-ci illərdə Lənkəran qızlar gimnaziyasının inspektoru, 1920-1921-ci illərdə savadsızlığın ləğv olunması üzrə ilk qadın kurslarının təşkilatçılarından olan Məryəm xanım Bayraməlibəyova ağır və məşəqqətli bir ömür yolu keçib.**



*Məryəm Bayramlıbəyova*



*Məryəm xanım qızları Azərə, Taliyə və Asimə ilə...*

Öz dövrünün ziyalı, maarifpərvər qadınlarından olan Məryəm xanım Bayraməlibəyova Lənkəranda qızlar məktəbinin və xeyriyyə cəmiyyətinin əsasını qoymaqla Azərbaycanda savadsızlığın aradan qaldırılmasında böyük səylə çalışıb, sonda o da bolşevik hakimiyyətinin amansız repressiyalarına məruz qalıb.

Məryəm Bayraməlibəyova 1898-ci ildə Lənkəran şəhərində tanınmış müəllim və maarifçi Teymur bəy Bayraməlibəyovun ailəsində dünyaya göz açıb. Bayraməlibəyovlar nəslinin kökü I Şah Abbasın hakimiyyəti illərinə gedib çıxır. Onlar məşhur Şahsevənlar nəslinə mənsub olub və XVI əsrin sonlarında Muğana köçüblər. Teymur bəy 1879-cu ildə Qori Seminariyasının Azərbaycan şöbəsinə daxil olan ilk 3 azərbaycanlıdan biri idi. O, seminariyanı bitirdikdən sonra Lənkərandakı rus məktəbində dərs deməyə başlayır. Maarifçi ziyalı həmçinin XIX əsrin 80-ci illərinin sonlarından başlayaraq 1916-cı ilədək müntəzəm olaraq Bakıda rus dilində çıxan "Kaspi" qəzetində Lənkəran qəzasının bölgə müxbiri kimi fəaliyyət göstərib.

Məryəm xanım Teymur bəyin doqquz övladından biri idi. Elmi yüksək dəyərləndirən Teymur bəy bütün çətinliklərə sinə gərərək övladlarını böyüdüb tərbiyə etməklə, onlara həm də ali təhsil vermişdi.

Gerçək bir maarifpərvər xalq müəllimi olan T.Bayraməlibəyovun qızının taleyində böyük rol oynayıb. Məryəm xanım da məhz atasının yolu ilə gedərək müəllimlik sənətini seçib.

Yazılı mənbələrdə Məryəm Bayramalibəyovanın həyat yolu ilə bağlı çoxlu maraqlı məlumatlar var. Məryəm xanım ibtidai təhsilini 1905-1911-ci illərdə Bakıda Hacı Zeynalabdin Tağıyevin "Müsəlman-rus" məktəbində, orta təhsilini isə "Müqəddəs Nina" qız məktəbində alıb. Sonralar oxumağa böyük maraq göstərən Məryəm xanım ali təhsil almaq üçün Moskvaya gedib və tibb institutuna qəbul olunub. Lakin o dövrdə maddi vəziyyəti ağır olan bu gənc qız çox böyük çətinliklərlə qarşılaşıb. O, kömək üçün neft sahibkarı Murtuza Muxtarova müraciət edib.

Muxtarov onun müraciətini cavabsız qoymayaraq, Məryəm xanıma təqaüd verməyə başlayıb. Məryəm xanım bununla bağlı xatirələrində yazır:"... Lakin Moskvada iki aydan artıq qala bilmədim. İnqilabın başlanması ilə əlaqədar Bakıya qayıtdım".

Vətənə döndükdən sonra Bakıda qalmaq üçün hər cür imkanı olmasına baxmayaraq, Məryəm xanım Lənkərana gəlir. Burada qızları çox çətinliklə bir yerə toplayıb məktəb açır. Gənc müəllim ev-ev, qapı-qapı gəzərək məktəbə 9-12 uşaq toplaya bilir. 1918-ci ildə Lənkəranda ilk qız məktəbi açılır. Məryəm xanım isə həmin məktəbin müdiri olur.

Onun şagirdi, ilk opera müğənnisi Həqiqət Rzayeva yazırdı: **"Məryəm xanım qızları məktəbə cəlb etmək üçün özü də çadrada gəzirdi. Biz təkcə yazmaq, oxumaq öyrənmirdik, eyni zamanda, səhnəciklər hazırlayıb valideynlərimiz qarşısında çıxış edirdik. Toplanan vəsait kasıb qızların məktəbə cəlb olunması üçün sərf edilirdi".**

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Həqiqət Rzayeva ilə yanaşı Azərbaycanın xalq artistləri Cahan Talışinskaya və Münəvvər Kələntərli də Məryəm xanımın şagirdləri oldular.

Məryəm xanım Lənkəranda yeganə qadın-pedaqoq idi. O, savadsızlığa qarşı kəskin mübarizə aparmaqla, qadınları şəhərin mədəni və ictimai həyatına cəlb etməkdən ötrü əlindən gələni əsirgəmirdi. Bu məqsədlə Məryəm xanım Lənkəranda ilk qadın Xeyriyyə Cəmiyyəti təsis etmişdi.

Həmin illərdə cənub regionunda gərgin və həyəcanlı vəziyyət yaranmışdı. Polkovnik İlyaşeviçin komandanlığı ilə Denikinin quldur dəstələri Lənkəranda hakimiyyəti ələ keçirərək, güclə bu bölgəni Rusiyanın tabeçiliyinə keçirməyə cəhd göstərirdilər. Şəhərin açıqfikirli, savadlı şəxslərinə göz görə-görə divan tuturdu. Belə vəziyyət gənc Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərliyini narahat etməyə bilməzdi. 1919-cu ilin payızında Respublika parlamentinin fövqəladə iclasında səs çoxluğu ilə Cavad bəy Məlikyeqanov Lənkəran mahalının səlahiyyətli nümayəndəsi seçilir. Azərbaycan hökumətinin göstərişi və şəxsən Cavad bəyin özünün təklifi ilə Azərbaycan ordusunun dəstələri general-mayor Həbibulla Səlimovun komandanlığı altında Lənkərana göndərilir. Bununla əlaqədar Cümhuriyyətin Hərbi naziri Səməd bəy Mehmandarov Lənkəran mahalının əhalisinə ünvanlandığı çağırışında yazırdı: **"Vətəndaşlar, Azərbaycan Respublikası Hökumətinin iradəsilə mən Lənkəran uyezdində vətəndaş müharibəsinin qarşısını almaq, orada qayda-qanun yaratmaq, sizləri qatillərdən xilas eləmək üçün dəstə göndərirəm. Azərbaycan Ordusu heç bir milli və dini ayrı-seçkiliyə yol vermədən Lənkəran uyezdinə qanunçuluq və ədalət gətirəcək, Silahlı Qüvvələrin himayəsilə bölgədə tezliklə əmin-amanlıq bərpa olunacaq...**

**...Hər bir silahlı müqavimət ölüm hökmü ilə cəzalandırılacaq və orduya belə hallara qarşı amansız davranmaq əmri verilib. Öz növbəmdə həmçinin dəstənin rəisinə dinc əhaliyə qarşı heç bir zorakılığa yol verilməməsini tapşırmışam".**

Milli Ordu qoşunlarının şücaəti sayəsində qondarma "Muğan radası"nın və Denikinin tör-töküntüləri məhv edilir və Cavad bəy Məlikyeqanov Lənkəran qəzasının general-qubernatoru təyin olunur.

Azərbaycan Demokratik Respublikasının proqramını Lənkəranda həyata keçirən Cavad bəy özünün bütün güc-qüvvəsini bu diyarın iqtisadi-mədəni inkişafına sərf edir.

Çox keçmir ki, Lənkəranda həyat öz axarına düşür. C.Məlikyeqanovun köməyi ilə burada yeni kitabxana və klublar, digər mədəni-maarif obyektləri fəaliyyətə başlayır, savadsızlığın ləğvi üzrə kurslar açılır...

Günlərin birində Cavad bəyin yolu Məryəm xanımın məktəbinə düşür. İlk tanışlıq sonradan güclü və sarsılmaz məhəbbətə çevrilir. Beləliklə gənc ailənin təməli qoyulur.

1921-ci ildə Məryəm xanım Bayraməlibəyova ömür-gün yoldaşı Cavad bəy Məlikyeqanovla birlikdə Bakıya köçür. Burada o, müəllimlik peşəsi ilə bərabər həmkarlar ittifaqında çalışmağa başlayır.

Məryəm xanım1921-1923-cü illərdə Bakıda Qara şəhərdə Həmkarlar İttifaqının təcrübə məktəbində işləməklə yanaşı, həmçinin 1921-ci ildən 1924-cü ilədək ayrı-ayrı məktəblərdə, seminarlarda, texnikumlarda Həmkarlar İttifaqının katibi vəzifəsində çalışır. İctimai işlərdə yaxından iştirak edən Məryəm xanım 1925-ci ildə Bakıda Azərbaycan Müəllimlərinin birinci qurultayının nümayəndəsi olur.

1925-ci ildə Bakıdakı 89 nömrəli orta məktəbin direktoru olan Məryəm xanım Bayraməlibəyova birinci SSRİ Müəllimlər Qurultayının nümayəndəsi seçilir. Bu nüfuzlu toplantıda o, təkcə Azərbaycan müəllimini deyil, həm də Şərq qadınını təmsil edir. Onun rus dilində söylədiyi nitq Nadejda Konstantinovna Krupskayanı valeh edir. Çıxışından sonra maarif naziri Aleksandr Lunaçarski Məryəm xanıma yaxınlaşıb nəzakətlə onun əlindən öpür və Moskvada işləməsinə razılıq verməsini xahiş edir. Lakin Məryəm xanım etiraz edərək: **"Mən bu gün vətənimdə daha çox lazımam"**, - deyir.

M. Bayraməlibəyova ali təhsil almağı çox arzulayıb. Elə buna görə də o, 1927-ci ildə Bakı Dövlət Universitetinin hüquq fakültəsinə daxil olub, dörd ildən sonra həmin təhsil ocağını fərqlənmə diplomu ilə başa vurub. Aspiranturada təhsil aldığı müddətdə Məryəm xanım öz işini ictimai fəaliyyətlə də əlaqələndirib.

Onun tərcümələri sayəsində rusdilli oxucular M.P.Vaqif, M.V.Vidadi, S.Vurğun, S.Rüstəm kimi tanınmış Azərbaycan şairlərinin yaradıcılığı ilə tanış olublar.

M.Bayraməlibəyovanın pedaqoji və ictimai fəaliyyəti 1937-ci ilə qədər davam edib. N.Nərimanov adına Bakı Sənaye Texnikumunda (1923-1933-cü illər) və Azərbaycan Dövlət Tibb İnstitutunda (1934-1937-ci illər) rus dili müəllimi işləyib.

Bu dövrdə Məryəm xanım Bayraməlibəyovanın həm də **"Şərq qadını"**, **"Maarif işçisi"**, **"Yeni məktəb"** və s. jurnallarda təlim-tərbiyə məsələlərinə dair məqalələri dərc olunurdu.

Məlikyeqanovlar ailəsində üç qız uşağı böyüyürdü. Valideyinlər onların hərtərəfli biliyə yiyələnməsi, öz ölkəsinin layiqli vətəndaşları kimi yetişmələri üçün əlindən gələni əsirgəmirdilər. Lakin bolşevik hakimiyyətinin siyahısında hədəf götürülən şəxslər sırasında bu ailənin də adı vardı. Beləliklə, Məlikyeqanovlar ailəsinin qara günləri qapını döyür. Azərbaycanda böyük bir ziyalı nəslinə qarşı başlayan repressiya onları da əzablı yollara salır.

28 may 1918-ci ildə Azərbaycan Demokratik Cümhuriyyətinin yaradılması haqqında tarixi Bəyannaməni imzalayan dövlət xadimlərindən biri olan Cavad bəy Məlikyeqanov 1933-cü ildə Azərbaycan Fövqəladə Komissiyasının qərarı ilə həbs cəzasına məhkum edilir və ömürlük olaraq Kominin düşərgələrinə sürgünə göndərilir. Yeri gəlmişkən qeyd edək ki, C.Məlikyeqanovun "Vətən xaini" kimi tutulması haqqında orderi erməni millətçiləri Nersesov və Ayvazov imzalayıblar.

Ömrünün çoxunu həbsxanalarda keçirən Cavad bəy Məlikyeqanov 18 may 1942-ci il mayın 18-də Kareliyada sürgündə vəfat edib.

Ərinin sürgün edilməsindən sonra gözəl ziyalı və maarifçi Məryəm xanım Bayraməlibəyovanı da dinc buraxmırlar.

Ona qarşı təqiblər başlanır. Həmin vaxtlar Məryəm xanım SSRİ Mərkəzi İcraiyyə Komitəsinin sədri M.İ.Kalinindən kömək istəyir. Lakin bu, heç bir fayda vermir. 1937-ci il noyabrın 15-də NKVD əməkdaşları Məryəm xanımı yaşadığı mənzildə həbs edirlər.

Məhbus həyatının ilk aylarını Bayıl həbsxanasında keçirən Məryəm xanımı bir müddət sonra uzaq Arxangelskə yola salırlar. Şimali Dvina çayının sahillərində ona ən ağır işləri tapşırır, işgəncələr verirdilər. Uzun illər ərzində topladığı bilik və təcrübələr burada da Məryəm xanımın karına gəlir. O, məşəqqətli fiziki əməkdən ayrılaraq yerli müəssisələrin birində mühasib vəzifəsini icra edir. Tezliklə onu ağır xəstəlik yaxalayır - gözlərinin torlu qişası zədələnir. Xəstəliyinə görə müalicə almaq adı ilə Məryəm xanımı Moskvaya - Butırsk həbsxanasına köçürürlər. "Müalicə"dən sonra o, yenidən Arxangelsk, daha sonralar Karaqanda həbsxanalarına göndərilir.

Məryəm xanım Bayraməlibəyova yalnız 1948-ci ildə cəza müddətini başa vurub Bakıya qayıdır. Amma haqsızlıq bununla da bitmir. Onu 1956-cı ildə bəraət verilənədək Bakıda öz ailəsinin, uşaqlarının yanında yaşamağa qoymurlar.

Cavad bəy Məlikyeqanova isə yalnız ölümündən sonra - 1959-cu ilin fevralında Kareliya MSSR Ali Məhkəməsi tərəfindən bəraət verilir.

Onu da qeyd edək ki, repressiya Məlikyeqanovlar ailəsinin bütün üzvlərini bir-birindən ayrı salıb. Cavad bəyin üç qızı - Azərə, Taliyə və Asimə nənələri Şirin xanımın himayəsində yaşayıb. Məlikyeqanov ailəsinin bir çox üzvləri "Vətən xaini" damğasından qorxaraq ata-baba soyadlarını Yeqanlı, Yeqanov, Rzayev, Zeynalov, Behbudov və s. ilə əvəz etməyə məcbur olublar.

1964-cü ildə M.Bayraməlibəyovaya fərdi təqaüd təyin edilir. Öz vətəni, xalqı üçün yanan, onun tərəqqisinə çalışan bu mübariz qadın əzab və iztirablar içində 90 il ömür sürür. O, 1988-ci ildə Azərbaycanda arzuladığı müstəqillik tarixini görmədən Bakıda dünyasını dəyişir.

Məlumat üçün bildirək ki, uzun müddət keçəndən sonra - 2000-ci ildə C.Məlikyeqanovun adını əbədiləşdirmək məqsədilə onun Məryəm xanımla Bakıda yaşadığı binaya xatirə lövhəsi vurulub. Amma M.Bayraməlibəyovanın adı və xidmətləri isə hələ də özünün layiqli qiymətini almayıb. Bizim qənaətimizcə, onun xatirəsini əbədiləşdirmək üçün Məryəm xanımın uzun illər çalışdığı Bakıdakı 89 nömrəli məktəbə və ya doğulub boya-başa çatdığı Lənkəranda mədəni-maarif müəssisələrindən birinə bu cəfakeş qadının adının verilməsi çox ədalətli addım olardı.

**Məryəm xanım yaşadığı şərəfli və əzablı ömür yolu ilə buna layiqdir!**

**AğaddinBABAYEV**

# Görkəmli xanəndə Canəli Əkbərov - 85

**Görkəmli xanəndə, Xalq artisti, professor Canəli Əkbərovun anadan olmasından 85 il ötür.**

**Mərhum xanəndənin ifasında səslənən muğam, təsnif və xalq mahnıları hər zaman dinləyicilər tərəfindən böyük məhəbbətlə qarşılanır.**

Canəli Əkbərov 1940-cı il martın 10-da Lənkəran rayonunun Tükəvilə kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra o, 1956-1958-ci illərdə Lənkəran Tibb Texnikumunda oxuyub. Musiqiyə hələ erkən yaşlarından həddsiz maraq göstərən Canəli Əkbərov 1963-1968-ci illərdə Asəf Zeynallı adına Bakı Musiqi Məktəbinin xanəndəlik şöbəsində təhsil alıb və mədəni-mənəvi irsimizin zəngin xəzinəsi olan muğamın incəliklərini həmin dövrdə böyük həvəslə öyrənib. Burada onun sənətkar şəxsiyyətinin formalaşmasında məşhur ustad sənətkarlarımızın böyük rolu və mühüm təsiri olub. Canəli Əkbərov 1976-1982-ci illərdə indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət



## Yarımbaşlıq çıxardın

Universitetində təhsil alıb.

1963-1975-ci illərdə Azərbaycan Dövlət Filarmoniyasında işləyən Canəli Əkbərov 1976-2006-cı illərdə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti olub, opera səhnəsində aparıcı rollarda çıxış edərək çox sayda yaddaqalan obrazlar yaradıb.

Canəli Əkbərov 1992-ci ildən etibarən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində dərs deyib, uzun illər muğam sənəti kafedrasının müdiri olaraq fəaliyyət göstərib.

## Yarımbaşlıq çıxardın

Geniş səs diapazonuna malik sənətkar Canəli Əkbərov milli xanəndəlik məktəbinin nailiyyətlərini layiqincə davam etdirib və Azərbaycanın musiqi mədəniyyəti xəzinəsinə töhfələr verib. Sələflərinin yaradıcılıq ənənələrinə sadiqlik və muğamın klassik ifa tərzinin qorunub saxlanması onun altmış ildən artıq müddət ərzindəki fəaliyyətinin başlıca qayəsini təşkil edib. Canəli Əkbərovun ifasında səslənən "Orta mahur", "Çahargah", "Arazbarı", "Heyratı" və digər qədim muğamlarımız, bir çox təsniflər və xalq mahnıları, həmçinin muğam operalarında yaratdığı partiyalar Azərbaycanın musiqi mədəniyyətinin inciləri sırasında özünəməxsus yer tutur.

Dünyanın bir çox ölkələrinə qastrol səfərlərində Azərbaycan mədəniyyəti günləri və beynəlxalq musiqi festivallarının iştirakçısı kimi Canəli Əkbərov milli mədəniyyətimizi uğurla təmsil edib, öz çıxışları ilə musiqimizi dünyanın müxtəlif xalqlarının nümayəndələrinə sevdirməyi bacarıb. Uzun müddət pedaqoji fəaliyyətlə məşğul olmuş ustad xanəndənin səmərəli sənət fəaliyyəti gənc və istedadlı ifaçıların yeni nəslinin formalaşdırılması üçün bir məktəb olub.

Canəli Əkbərov milli musiqi mədəniyyətinin inkişafı sahəsində nailiyyətlərinə görə 2000-ci ildə Azərbaycan Respublikasının ali mükafatlarından olan "Şöhrət", 2010-cu ildə "Şərəf" və 2020-ci ildə 1-ci dərəcəli "Əmək" ordenləri ilə təltif edilib.

Canəli Əkbərov 2021-ci il oktyabrın 22-də vəfat edib.

**Əli ƏKBƏROV,**
**Şağlaser kənd sənətkarlıq evinin işçisi**

# Yeni tamaşa: "Tanrı əmanəti"



**Lənkəran Dövlət Dram Teatrında yazıçı-dramaturq Qafar Cəfərlinin "Tanrı əmanəti" pyesi əsasında hazırlanan eyni adlı tamaşanın premyerası keçirilib.**



Səhnə əsərinin quruluşçu rejissoru Anar Babalı, quruluşçu rəssamı Sevən Həsənli, musiqi tərtibatı Vüqar Fərəcov, rejissor köməkçisi Nuranə Nəcəfovadır.

Tamaşada rolları Vəfa Hacızadə (Xəyalə), Səyad Əliyev (Əli Zaminli), Ayşən Əsədova (Solmaz), Saleh Əzimzadə (Nüsrət), Allahverən Babayev (Prokuror), Miraslan Ağayev (Rafiq),

## Yarımbaşlıq çıxardın

Teymur Hacızadə (Elşad), Buludxan Buludov (Kərim), Leyla Şirinova (Ülkər) canlandırıblar.

Qafar Cəfərlinin "Tanrı əmanəti" dramında hadisələr bizim günlərdə cərəyan edir. Əsərin qəhrəmanları iki qütbə bölünür: əqidəni, namusu, mənəviyyatı əsas tutanlar və maddiyyatı, keyfi, əyyaşlığı və şərəfsizliyi qəbul edib yaşayanlar.

Tamaşada bir qadının taleyi fonunda günümü-



## Yarımbaşlıq çıxardın



zün bir-biri ilə bağlı ən vacib məsələləri (işsizlik, insan taleyinə biganəlik, uşaq əməyinin istismarı, mənəvi-əxlaqi dəyərlərin aşınması, valideyin məsuliyyətinin itməsi və.s) dramatik ampulada kəskinliklə qabardılır, bu neqativliklərin gələcəkdə daha böyük fəsadlar yaradacağının anonsunu verir və hamını günümüzün bu eybəcərlikləri ilə mübarizəyə səsləyir.

**"Lənkəran"**

# Novruz şənliklərində yanğın təhlükəsizliyi qaydalarına əməl edilməlidir



**Yurdumuza bahar gəlir - həmişə sevinclə, səbirsizliklə gözlədiyimiz bahar. Xalqımız həmişə olduğu kimi milli adət ənənələrimizə uyğun olaraq baharın gəlişini - Novruz bayramını hər yerdə xoş ovqatla, çal-çağırla qarşılamağa hazırlaşır. Çünki Novruz bayramı öz adət-ənənələri ilə xalqımızın tarixi köklərini və milli dəyərlərini özündə yaşadan ümumxalq bayramıdır.**

Bu bayram gur tonqalları, gözoxşayan noğullu-nabatlı, dadlı şirniyyatlı və yanar şamlı xonçaları, yamyaşıl səmənisi, mübarək niyyətləri, diləkləri ilə sevilir və iqtisadiyyatı gündən-günə qüdrətlənən müstəqil Azərbaycan Respublikasının bütün şəhər və kəndlərində əhali Novruz bayramını hər yerdə xoş ovqatla, çal-çağırla qarşılayır, bir-birindən rəngarəng bayram tədbirləri keçirirlər.

Milli bayramımız Novruzun gəlişi ərəfəsində hər birimizin arzusudur ki novruz şənlikləri ən ülvi duyğularla yaddaşlara həkk olunsun, bayramlar yalnız və yalnız xoş hisslərlə xatırlansın. Ötən illərin yanğın statistikasının təhlili göstərir ki, bayram şənliklərinin və tədbirlərinin keçirilməsi zamanı insanların adi ehtiyatsızlığı səbəbindən yanğınlar baş verir, nəticədə vətəndaşlarımıza maddi və mənəvi ziyan dəyir. Bunun üçün isə bir sıra təhlükəsizlik qaydalarına, o cümlədən yanğın təhlükəsizliyi ilə bağlı bütün tələblərə ciddi əməl olunmalıdır. Birinci növbədə qeyd edilməlidir ki, Novruz bayramında əhali tərəfindən pərakəndə halda tonqallar yandırılarkən yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl olunmalı, tonqallar ətrafda olan yanar materiallardan, mühəndis-texniki qurğulardan, qaz xətlərindən, evlərdən, binalardan, tezalışan maye və materialların saxlandığı yerlərdən kənarda yandırılmalıdır.

Bayram şənlikləri zamanı tonqallar tam söndürülənədək nəzarətdə saxlanılmalıdır. Unutmaq olmaz ki, zəif bir küləyin əsməsi nəticəsində tam sönməmiş tonqalın közü yanğın üçün mənbə ola bilər. Novruz şənliklərində yanar mayelərin hopdurulması ilə hazırlanan məşəllərin azyaşlı uşaqlar tərəfindən havaya atılması nəticisində də ciddi yanğınlar baş verə bilər.

Belə ki, məşəllər evlərin dam örtüklərində və ya həyətyanı sahələrdə yığılmış yanar materialları, çəpərləri, ot tayalarını alışdıra bilər. Yüksəkliklərdə, dağ və dağətəyi yerlərdə, eləcə də digər yaşayış sahələrində avtomobil şinlərinin yandırılması qəti qadağandır.

Belə hallarda yanan şinlər diyirlənərək ətrafdakı yaşayış sahələrində yeni yanğın ocaqlarının yaranmasına səbəb ola bilər.Uşaqlar adət-ənənələrimizə uyğun olaraq tonqalların üzərindən atılarkən özlərini yanğından qorumalıdırlar. Bayram tədbirlərində, xüsusən də tonqal ətrafında əylənən və şənliklərində azyaşlı uşaqlar mütləq valideynlərin nəzarəti altında olmalıdır.

Bayram şənlikləri zamanı şam yandırılarkən yanğın təhlükəsizliyi qaydalarına diqqət yetirmək lazımdır. Unutmaq olmaz ki, yanar şamı öz ərintisi ilə stol, kibrit qutusu üzərinə və digər yerlərə yapışdırmaq olmaz. Bayram şənlikləri zamanı müəssisə və təşkilatlar, təhsil ocaqları, xüsusən də uşaq evləri və internat məktəblərindəyanğın təhlükəsizliyi qaydalarına nəzarəti daha da gücləndirməlidirlər. Milli bayramımızı- Novruzu acı sonluqla başa vurmamaq üçün yuxarıda sadalanan, həmçinin yanğın təhlükəsizliyi ilə bağlı digər qaydalara əməl etmək vacibdir.

**FHN-in Dövlət Yanğın Nəzarəti Xidmətinin Cənub regional Dövlət yanğın nəzarəti idarəsi**

# Əməkdar artistin xatirəsi yad olunub



**Martın 12-də - Əməkdar artist, uzun illər Lənkəran Dövlət Dram Teatrında aktyor və rejissor kimi fəaliyyət göstərmiş Adil Zeynalovun anım günü qeyd olunub.**





Lənkəran Dövlət Dram Teatrının kollektivi, sənətkarın yaxınları və dostları şəhərin Sardaxıl qəbirstanlığında onun məzarını ziyarət ediblər. Şıxışlarda Adil Zeynalovun xatirəsinin daim əziz tutulduğu, onun öz sənəti ilə teatrsevərlərin qəlbində dərin iz buraxdığı dönə-dönə qeyd olunub. Daha sonra mərhumun ruhuna dualar oxunub.

A.Zeynalovun oğlu Kənan Zeynallı atasının xatirəsinə göstərilən diqqətə görə mərasim iştirakçılarına ailəsi adından minnətdarlığını çatdırıb.

Qeyd ki, Adil Ağakərim oğlu Zeynalov 20 fevral 1960-cı ildə Lənkəran şəhərində anadan olub.

1983-cü ildə M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun Musiqili komediya aktyorluğu fakültəsini bitirib. 1977-ci ildən Lənkəran Dövlət Dram Teatrında əmək fəaliyyətinə başlayan A.Zeynalov 1983-cü ildə aktyor truppasına qəbul olunaraq bir sıra rolları ifa edib, 2002-ci ildən ömrünün sonuna kimi teatrda quruluşçu rejissor vəzifəsində çalışaraq, onlarla tamaşaya uğurlu quruluş verib. Teatr fəaliyyəti ilə yanaşı, bir sıra bədii filmlərdə də çəkilib. Milli teatr sənətinin inkişafındakı xidmətlərinə görə Adil Zeynalov 2012-ci ildə respublikanın Əməkdar artisti fəxri adına layiq görülüb.

Aktyor 12 mart 2020-ci ildə yaradıcılığının çiçəkləndiyi bir vaxtda vəfat edib.

**"Lənkəran"**



# Lənkəranda "Konstitusiya və Suverenlik ili" çərçivəsində daha 2000 sərv ağacı əkilib



**"Konstitusiya və Suverenlik İli" ilə bağlı təsdiq olunmuş Tədbirlər Planına uyğun olaraq 13 martda Ələt-Astara avtomobil yolunun Lənkəran rayonundan keçən hissəsində ağacəkmə aksiyası keçirilib.**

Yerli idarə, müəssisə və ictimaiyyətin nümayəndələrinin iştirakı ilə baş tutan aksiyada yeni əkilən ağaclar suvarılıb və dayaqlarla bərkidilib. Liman, Boladi, Girdəni, Haftoni, Qrumba, Şağlakücə, Kərgəlan, Şürük, Səpnəkəran və Sütəmurdov ərazilərində aparılan aksiya zamanı 2000 sərv ağacı əkilib.

Qeyd edək ki, ağacəkmə aksiyasının ilboyu davam etdirilməsi nəzərdə tutulub.

## Allah rəhmət eləsin!

Hacı Fəxrəddin Caniyev, Eldar Əliyev, Hacı Ələkbər Əliyev, Əlimərdan Əliyev, Hacı Etibar Əhədov, Şöhrət Cəgərov, Ağaddin Babayev, Əlirza Əliyev, Sərraf Talıbov dostları Güloğlan Bağırova, atası

**Baloğlan kişinin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


## ƏZİZ OXUCULAR!

**2025-ci ilin birinci yarımili üçün "Lənkəran" qəzetinə abunə kampaniyası davam edir.**

**ALTI AYLIQ ABUNƏ QİYMƏTİ 20 MANATDIR.**

**Əlavə məlumat almaq üçün redaksiyamıza (02525) 5-35-05 və ya (050) 362-35-15 (mobil) nömrələrinə zəng vura bilərsiniz.**

**"Lənkəran" qəzeti**



Baş redaktor Əlimərdan ƏLİYEV

HESAB NÖMRƏMİZ: AZ30AIIB33010019443860238138 VÖEN 2600244411 Kapital Bankın Lənkəran filialı lisenziya № V 343 İndeks: 66920

ÜNVANIMIZ: Lənkəran şəhəri, Heydər Əliyev prospekti, 3 (4-jü mərtəbə) Telefonlar: 255-35-05, 255-35-49 E-mail: lenkeranqezeti@mail.ru

Qəzet redaksiyanın kompüter mərkəzində yığılmış və səhifələnmiş, Bakıda "Azərmedia" MMC-nin mətbəəsində çap olunmuşdur. Tiraj: 300